Sentyabrın 11-də elm və təhsil naziri Emin Əmrullayev media üçün brifinq keçirib.

Brifinqdə təqdimatla çıxış edən Emin Əmrullayev aşağıdakı məsələləri xüsusi olaraq qeyd edib:

- 2025-2026-cı tədris ilində ümumilikdə 2.2 mln təhsilalanın təhsil alacağı proqnozlaşdırılır.
- 2025-2026-cı tədris ilində 130 mindən çox şagird birinci sinifdə təhsil alacaq.
- Məktəbəqədər təhsildə əhatəlilik ölkə təhsilinin uzunmüddətli dövrdə daha yaxşı olmasına təsir edən ən vacib məsələdir.
- Yeni tədris ilində tərbiyəçi-müəllimlərin sertifikatlaşdırılması olacaq və 2026-cı ildə bunun tətbiqi planlaşdırılır.
- Son 4 ildə lisey və gimnaziyalara qəbul 2 dəfəyə qədər artıb. Məqsəd ölkədə gimnaziyaların sayını 100-ə çatdırmaqdır.
- Cari ilin sertifikatlaşdırma prosesinin müsahibə mərhələsi bitdikdən sonra ümumilikdə 72 mindən çox təhsilverənin əməkhaqqına əlavələr edilib.
- Son 10 ildə müəllimlərin orta aylıq əməkhaqqısı 3 dəfəyə qədər artıb.
- Məktəblərdə müəllimlərin keyfiyyəti sertifikatlaşdırma nəticəsində yüksəlib.
- Son illərdə 600-ə yaxın yeni məktəb tikilmiş və ya əsaslı təmir olunmuş, qəzalı məktəblərin sayı 2 dəfədən çox azalaraq 400-ə enib.
- Tam orta təhsil səviyyəsi üzrə 14 məktəbdə yeni təmayül tədris modeli pilot tətbiq olunacaq.
- Ötən il 147 müəssisədə rasionallaşdırma tədbirləri həyata keçirilib. Yeni tədris ilində daha 113 müəssisə ilə bağlı qərar veriləcək.
- Ümumi təhsil müəssisələrinə direktorların işə qəbulunda yeni yanaşmalara əsasən, namizədlərin sertifikatlaşdırma balı əsas meyarlardan biri kimi qəbul edilmişdir. Şagird sayı 500-dək olan müəssisələrə seçim zamanı ərazi prinsipinə baxılacaq.
- Bu ildən Bakı məktəblərində jurnallar ləğv olunur və "Rəqəmsal məktəb" platforması fəaliyyətə başlayır.
- 2025–2026-cı tədris ilində ali təhsilin bütün səviyyələrinə 75 min tələbə qəbul olunub.
- Son 10 ildə ali təhsil müəssisələrinə tələbə qəbulu 40%-dən çox artıb. Dövlət sifarişli əsaslarla qəbul olan tələbələrin sayı 2 dəfədən çox artıb.
- Yeni tədris ilindən ilk dəfə olaraq tələbələr SABAH qruplarına 1-ci kursdan qəbul ola biləcəklər.
- 2025-2026-cı tədris ili üzrə peşə təhsili müəssisələrinə qəbul olunan tələbələrin 75%-i dövlət sifarişi əsasında təhsil alacaq.
- Ölkəmiz "QS 2026" qlobal reytinqində Cənubi Qafqaz regionu üzrə liderdir.

Təqdimatdan sonra media nümayəndələrini maraqlandıran çoxsaylı suallar cavablandırılıb.